UOT 37.01

***Lamiyə Seyid-Abbas qızı Mircəfərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# BİOLOGİYA ÜZRƏ SİNİFDƏNKƏNAR MƏŞĞƏLƏLƏRDƏ EKOLOJİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI

***Ламия Сеид-Аббас гызы Мирджафарова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ ВО ВНЕКЛАССНЫХ ЗАНЯТИЯХ В ОБЛАСТИ ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

***Lamiya Seid-Abbas Mirjafarova***
*Azerbaijan State Pedagogical University*

# THE ESTABLISHMENT OF ENVIRONMENTAL EDUCATION IN EXTRACURRICULAR TRAINING IN BIOLOGY TEACHING

**Xülasə:** Məqalədə ümumtəhsil müəssisələrində biologiyanın tədrisində ekoloji tərbiyənin formalaşdırılması araşdırılır. Məqalədə biologiyanın tədrisində sinifdənkənar məşğələlərdə ekoloji tərbiyənin formalaşdırılmasının vacibliyi göstərilir. Ekoloji tərbiyə formalaşdırmaq üçün ekoloji oyunlardan geniş istifadə olunması, ekoloji oyunların tədrisi zamanı müəllimlərin qarşısında duran əsas vəzifələr verilmişdir. Ekoloji tərbiyənin formalaşdırılmasına dair təkliflər irəli sürülür.

***Açar sözlər:*** *ekoloji tərbiyə, sinifdənkənar məşğələ, ekoloji mədəniyyət, ekoloji oyun, Qırmızı kitab*

**Резюме:** В статье рассматривается формирование экологического воспитания в области преподавания биологии в общеобразовательных учреждениях. В статье излагается важность формирования экологического воспитания во внеклассных занятиях и в преподавании биологии. Для того, чтобы сформировать экологическое воспитание, учителя должны уделить внимание проведению экологических игр. В заключение статьи даны рекомендации по формированию экологического воспитания.

***Ключевые слова:*** *экологическое воспитание, внеклассные занятия, экологическая культура, экологическая игра, Красная книга*

**Summary:** The article studies the formation of ecological education in the teaching of biology in general education institutions. The article outlines the importance of environmental education in extracurricular activities in teaching biology. In order to form ecological nature, the main tasks facing teachers are given by the wide use of environmental games and teaching of ecological games. Suggestions on the formation of environmental education are put forward.

***Key words:*** *environmental education, extracurricular activities, ecological culture, ecological game, Red book*

Şagirdlərə doğma təbiətə qayğı tərbiyə etmək üçün ekoloji tərbiyə sistemində üç başlıca vəzifə həyata keçirmək vacibdir: a) ətraf mühitə qayğı; b) doğma vətənin bitki və heyvanlarını mühafizə etmək; c) ümumilikdə təbiətə məhəbbət tərbiyəsi.

Ekoloji maarifləndirmədə əsas məqsəd təbiətlə ünsiyyət zamanı ona münasibətdə olan hərəkətlərində ekoloji mədəniyyət və ekoloji məqsədəuyğunluğunun göstərilməsidir. Məktəbdə və təhsil müəssisələrində ekoloji maarifləndirmənin təşkilinin təlim təhsildə və sinifdənkənar tədrisdə aparılan iş zamanı qarşıya qoyulan vəzifə aşağıda göstərilən məqsədlərə cavab verməlidir:

1) müəllim və şagirdlər üçün optimal şəraitin yaradılması; 2) tədqiqat işlərinə marağın formalaşdırılması; 3) əhalinin ekoloji maariflən-

dirilməsi işini təmin etmək; 4) müstəqil fəaliyyət göstərmək bacarığını formalaşdırmaq; 5) həyatda ətraf mühitə və özünə kömək göstərmək qabiliyyətinə yiyələnmək.

Əhalinin və məktəblilərin ekoloji maarifləndirilməsi işinin əsas istiqamətləri göstərilənləri əhatə etməlidir: a) tədrisdə tədqiqat işlərinin aparılması; b) yerlərdə və məktəb proqramı çərçivəsində ətraf mühitin ekoloji durumu barədə məlumatın toplanması və analizi; c) "Məktəblilərin ekoloji monitorinqi"; təşviqat və təbliğat işlərinin aparılması; d) təbiətin mühafizəsi; təcrübədə yerli ekoloji problemlərin həllində iştirak.

Maarifləndirmə işində əsas məsələlərdən biri də təbiətin bizə verdiyi sərvətlərə qarşı qayğı ilə yanaşmaq, ona mədəni münasibət göstərmək bacarığını inkişaf etdirməkdir. Belə ki, meşələr ekosistemin əsas elementi olmaqla yanaşı, təbiətin bizə bəxş etdiyi ən vacib sərvətidir. Bu işdə bütün şagirdlərin fəal iştirakı vacibdir. Bu məqsədlə uşaqlar bütün dərs ili boyu müxtəlif oyunlarda iştirak etməli və layihələr həyata keçirməlidirlər. Təbiət qoynuna səyahətlərin təşkil olunması və bu ekskursiyalar zamanı təbiətdə topladıqları dərman bitkilərindən, güllərdən herbarilər düzəltmək, heyvanları və quşları müşahidə etmək sonra uşaqların təbiət ünsürlərinə həsr etdikləri yaradıcılıq işinə həsr olunmuş sərgilərin təşkil olunması onların ətraf mühit elementləri haqqında müxtəlif biliklər formalaşmasına səbəb olacaqdır.

Sinifdənkənar məşğələlərdə ekoloji tərbiyə formalaşdırmaq üçün ekoloji oyunlardan geniş istifadə olunmalıdır. Ekoloji oyunların tədrisi zamanı müəllimlərin qarşısında duran əsas vəzifələr verilənləri əhatə etməlidir: 1) şagirdlərdə təbiət haqqındakı bilikləri formalaşdırmaq; 2) təbiət elmləri haqqında bilikləri genişləndirmək, təbiətə qarşı anlayışlı fəaliyyətləri aktivləşdirmək, bu fəaliyyətləri başqa fənlərə tətbiq etmək bacarığına yiyələnmək; 3) oyunlarda qaydalara, məntiqə əsaslanaraq, düşünmək, dərk etmək, yadda saxlamaq, diqqət, maraq göstərmək, düzgün konstruktiv çıxışa riayət etmək bacarıqlarını formalaşdırmaq; 4) uşaqlarda ekoloji mədəniyyəti, doğma təbiəti sevmək, mühafizə etmək, qorumaq kimi hissləri tərbiyə etmək; 5) onlarda təbiətlə qarşılıqlı kömək və yardım etmək kimi hissləri tərbiyə etmək; 6) tələbatların və vərdişlərin ekoloji əsaslarının formalaşmasına çalışmaq; təbiətə qarşı məqsədyönlü hərəkətlər etmək; 7) kommunikativ bilik və bacarıqların formalaşdırmaq.

Ətraf mühitin ekoloji vəziyyətinin gərginləşməsi, insan-təbiət münasibətlərinə yeni baxışlar tələb edir. Bununla əlaqədar olaraq belə bir məsələ ortaya çıxır: bu həlli vacib olan bir işdir, bunun həyata keçirilməsi nəinki ekoloqlar tərəfindən həyata keçirilməli həmçinin müəllimlər, ümumiyyətlə ictimaiyyətin böyük bir kütləsi xüsusən də sadə adamlar tərəfindən həyata keçirilməlidir. Ən əsası isə odur ki, təbiətə qarşı düzgün münasibət lap kiçik yaşlarından insanlara tərbiyə edilməlidir.

Ekoloji oyunların keçirilməsi texnologiyası isə aşağıdakılardan ibarətdir:

1) Müəllim, proqram bölümündən hansı mövzu ilə bağlı ekoloji oyunları keçirtmək üçün seçim edir. Ekoloji mədəniyyətin tərbiyə və təliminə dair seçilmiş mövzu ilə bağlı əsas ideyanı, qarşılıqlı münasibətlərin formalaşdırılması üçün yerin seçilməsi; 2) ekoloji mədəniyyətin tərbiyə və təliminə dair seçilmiş mövzu ilə bağlı əsas ideyanı, qarşılıqlı münasibətlərin formalaşdırılması üçün yerin seçilməsi; 3) ekoloji oyunun strukturunu və gedişini tərtib edir; pedaqoji sistemin şərtlərinin, seçilmiş mövzu üzrə ekoloji biliklərin effektiv formalaşmasının oyun metoduna əsaslanaraq müəyyən edilməsi; 4) tapşırıqların başlama səviyyəsinin yoxlanması üçün bilik və münasibətlərin formalaşması sisteminin diaqnostikası; 5) kiçik yaşlı məktəblilərin tərbiyəsində ekoloji mədəniyyət oyun metodlarından istifadə etməklə effektivliyin yoxlanması üçün kompleks tapşırıqlarının tərtib edilməsi.

**Gəlin təbiətlə dostluq edək** ekoloji oyunu 7 müsabiqədən ibarətdir. V-VII siniflər üçün ekoloji oyundur. Şagirdlərin təbiət haqqında biliklərini artırmaq, onları düşündürmək, yaddaşlarını inkişaf etdirmək və ekoloji mədəniyyəti tərbiyə etmək məqsədini daşıyır. Bu oyunda Yer kürəsi haqqında danışılır, onun ekoloji durumu, bir canlı fərd olmasından, insanların onunla nələr etdiyi barədə məlumatlar verilir. Beynəlxalq Təbiəti Mühafizə təşkilatı tərəfindən nəsli kəsilməkdə olan heyvan və yox olan bitki növlərinin adlarını qeyd etmək üçün kitab tərtib edilməsinə qərar vermişdir. Bu kitabı "Qırmızı kitab" adlandırmışlar.

Bütün siniflər üzrə ekoloji tərbiyənin formalaşdırılmasına diqqət yetirmək lazımdır və onun aşılanmasına biganə yanaşmamaq lazımdır.

**Problemin aktuallığı.** Biologiyanın tədrisində sinifdənkənar məşğələlərdə ekoloji tərbiyənin formalaşdırılmasındakı problemlərin həll olunması əhəmiyyətli hesab edilir.

**Problemin yeniliyi.** Biologiyanın tədrisində sinifdənkənar məşğələlərdə ekoloji tərbiyənin formalaşdırılmasının imkan və yolları öyrənilmiş, bu sahədə olan müəyyən problemlər aşkar edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin pedaqoqlar, doktorant və dissertantlar, magistrantlar, biologiyanın tədrisi haqda tədqiqat aparan şəxslər, xüsusilə də, orta məktəb müəllimləri üçün faydalı olacağı düşünülür.

**Ədəbiyyat:**

1. Azərbaycanın "Qırmızı kitabı". Bakı, 1989.
2. Əsgərov Ə.A. Ətraf mühitin qorunması və təbii sərvətlərin qorunması. Bakı, 1989.
3. Hacıyeva H., Axundov S. Təbiətşünaslığın tədrisində ekoloji təfəkkürün formalaşması // Pedaqoji Universitet xəbərləri. Təbiət elmləri seriyası. Bakı, 2004, № 3
4. Piruz P.M. Ümumi biologiyanın tədrisində ekoloji biliklərin öyrədilməsi yolları. Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, № 4

E-mail:aysel_ava_95@mail.ru,
E-mail: allahverdiyevadilber@gmail.com

**Rəyçilər:** *prof.* Ə.M. Hüseynov,
*biol.ü.fəls.dok.* İ.M. Kazımov
**Redaksiyaya daxil olub: 22.05.2018**